# QARABAĞ MƏDƏNİYYƏTİNİN İNCİSİ ŞUŞAM

**Abdullayeva Rövşanə**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
rvan.abdullayeva@mail.ru

**Xülasə**

Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhəri zəngin təbii resurslara və tarixi-mədəni irsə malik olan qədim şəhərlərdən biri sayılır. Mədəniyyət mərkəzi ilə yanaşı sosial-iqtisadi inkişaf əhəmiyyəti kəsb edən şəhər öz tarixi abidələri ilə dəyərlərini qorumaqdadır. Şuşa ilk zamanlarda özünü müdafiə edən qala şəhəri olsa da, sənətkarlıq nümunələri və tikililəri ilə fərqlənməyi bacarmışdır. Qafqazın incisi hələ 1970- ci ildən Ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Buraya tez-tez səfərlər edərək şəhərin problemləri ilə yaxından tanış olması, lazım gəldikdə buraya kapital yatırımlarının cəlb edilməsi həyata keçirilmişdir. Həmin illərdə Şuşanın tarixi hissəsi Ümummilli lider Heydər Əliyev tərəfindən tarixi-memarlıq qoruğu elan edilib.

**Problemin qoyuluşu:** Məqalə Qarabağın mirvarisi sayılan Şuşa şəhərinin ölkəmizin iqtisadi inkişafında çox mühüm rol oynamasına əsaslanır. Qədim Şuşa karvan yollarının qovşağında yerləşmişdir. Burada tarix boyu ədəbi məclislərin, musiqi festivallarının baş tutduğu qədim saraylar, memarlıq abidələri diqqət çəkmişdir. Əfsuslar olsun ki, işğal altında olduğu zaman bəzi tarixi abidələrimiz dağıdılmış, sosial turizm infrastrukturuna xeyli ziyan dəymişdir. Buna baxmayaraq Şuşanın potensial əraziyə və mühitə malik olması qarşıya qoyulan düzgün inkişaf yollarının tapılaraq, hərtərəfli təhlil əsasında yenidən bərpa işlərinin geniş şəkildə aparılmasını tələb edir.

**Təhlil və qiymətləndirmə:** Şuşa şəhərində turizm inkişafının başlıca məqsədi əlverişli imicin yaradılması ilə yanaşı, tarixi-mədəni irs obyektlərinə diqqətin formalaşdırılmasını yaratmaqdır.

Əldə olunan göstəricilərə görə Şuşada 549 qədim bina, 6 karvansaray, 2 mədrəsə, 17 məscid, 3 türbə, 2 qəsr və qala divarları, binalarda 72 ədəd iz qoymuş şəxslərin yaşayış evləri sayılır. Zaman-zaman alimlər tərəfindən aparılan arxeoloji qazıntılar nəticəsində qədim insanların mağaralarda yaşayış məskənlərinin olması təsdiqlənmişdir. Tunc və dəmir dövrünə təsadüf edildiyi ortaya çıxmışdır. Beləliklə Şuşanın köklərinin uzaq keçmişə əsaslanması özünü bir daha sübut edir. Azərbaycan Respublikası mədəni-tarixi obyektləri ilə və YUNESKO siyahısına düşən adət-ənənələri, abidələri ilə tanınmaqda davam edir. Siyahı yetərincə lazımi şəkildə dünya ictimaiyyətinə çatdırılmaqdadır. Bu siyahıya Novruz bayramı (2009), Şəki Xan Sarayı (2019), Azərbaycanın muğamı (2008), Xalçaların sənətini (2010) , Qobustan qayaüstü təsvirləri (2007) , Qız qalası (2000) və s. bir neçə mədəni irslərimizi misal gətirmək olar.

Azərbaycanın YUNESKO tərəfindən siyahıya salınan və dünya mədəniyyət arenasında tərənnüm olunan məhz Şuşanın muğamı musiqi tarixində böyük rol oynamışdır. 70-ci illərdən keçirilən mədəniyyət tədbirləri, poeziya günləri ilə yanaşı, 1989-cu ildən keçirilən Xarıbülbül Musiqi Festivalı və buraya axışan çoxsaylı qonaqlar Şuşanın qədim musiqi tarixinə və mədəniyyət şəhəri olmasını göstərən nümunələrdir. Hətta ilk dəfə teatr tamaşalarının da əsası Şuşada qoyulmuşdur. (1940 - ci ildə)

19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində qədim şəhər Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şəhər bir çox adlar "Azərbaycan musiqisinin beşiyi, "Qafqazın sənət məbədi", "Zaqafqaziyanın Konservatoriyası" altında tanınırdı. İşğaldan öncəki zamanlarda 1989-cu ildən hər il Cıdır düzündə Xarıbülbül Festivalı təşkil olunurdu. Təəssüf ki, işğal dövründə şəhərdə uzun müddət muğam sədaları, Vaqif poeziyasına həsr olunmuş tədbirlər

keçirilə bilmədi. Lakin öz azadlığına qovuşandan sonra Heydər Əliyev Fondu tərəfindən 2021-ci ildə nəhayət musiqi festivalı təşkil edildi. Şuşada Xarıbülbül mədəni tədbirlərin keçirilməsi bundan sonra da beynəlxalq səviyyələrdə keçiriləcək. Beynəlxalq Türk Mədəniyyət Təşkilatı TÜRKSOYun qərarına əsasən Şuşa türk dünyasının mədəniyyət paytaxtı adlandırılmışdır.

Şuşa şəhəri xalçaçılıq sənəti üzrə xüsusən də Qarabağ xalçaları adı ilə dünyaca tanınmışdır. Əlvan rəng çalarları, xüsusi naxışlarla digərlərindən seçilirdi. 18-ci əsrdə yaşamış general Səməd Bəy Mehmandarovun evində xalça muzeyi yaradılmışdır. Birinci Qarabağ müharibəsi zamanı təəssüflər olsun ki, qiymətli xalçaların itkisi baş vermişdir. Həmin çətin zamanlarda 246 xalçadan yalnız 183 muzeydən çıxarıla bilmişdir.

Şuşalıların tarixi mədəni irsinin mühüm əsas elementi bölgə sakinlərinə xas adət-ənənələrdir. Sevimli məşğuliyyətə çevrilən Qarabağ atları ilə keçirilən yarışlar və milli oyun sayılan "Çovqan", "Papaq oyunu", "Baharbəndi", "Yaylıq oyunu" ilk dəfə Şuşada yaranıb. Bayram ərəfələrində əsasən Cıdır düzündə musiqilər ifa edilir və adət-ənənələr yerinə yetirilirdi. YUNESKO siyahısında olan Novruz bayramı (2009) ərəfəsində novruz tamaşalar təşkil olunur, hər çərşənbə axşamlarında böyük tonqallar yandırılırdı.

İşğal dövrü zamanı 30 il ərzində Şuşanın tarixi memarlıq abidələrinə çox ziyan dəymişdir. Mənfur düşmənlər heykəlləri qırıntı kim satmış, barrierləri və büstləri dağıtmışdılar. Elmin inkişafı üçün tikilmiş musiqi məktəbləri, sanatoriyalar, 2 institut və 4 texnikom, kitabxanalar tamamilə sökülmüşdür. Bununla kifayətlənməyən düşmən Şuşa şəhər muzeyini, xalça muzeyini, Bülbülün və məhşur bəstəkar Üzeyir Hacıbəyovun ev muzeyinidə dağıtmışdılar. Mədəniyyət abidələrimizin bəzilərini özününküləşdirmiş, dağıdılan abidələr əvəzinə özlərinə inzibati

binalar tikmişdilər. Şuşadakı muzeylərdə təqribən 40 min ədəd eksponat daşınaraq xarici aparılmış , tarixi tikililərin interyerini dəyişmişdilər. Onların qarşılarına qoyduğu əsas məqsəd qədim Şuşa şəhərini ermənilərin dini mədəni mərkəzinə çevirmək idi.

Müzəffər Ordumuz 44 günə şanlı tarix yazdı. Başda prezidentimiz Ali Baş Komandan İlham Əliyev tərəfindən Şuşa şəhəri 2020-ci il 8 noyabr tarixində işğaldan azad olundu. Çox təəssüff hissi ilə demək olar ki, işğal altında olarkən mənfur düşmənlər şəhərin maddi sərvətlərini talamış və külli miqdarda ziyan vuraraq mədəni irsini təhlükə altını atmışdır. Buna baxmayaraq dövlətimizin qarşısında dayanan mühüm məsələlərdən biri başlıca olaraq qədim Şuşanı yenidən ən gözəl şəkildə bərpa etməkdir. Prezidentimiz Ali Baş Komandan İlham Əliyev bununla bağlı mühüm fikirlər də söyləmişdir: "Azad olunan ərazilərin bərpası zamanı yalnız Azərbaycanın yox, dünyanın ən gözəl guşələrindən birini yaratmış olacağıq. Cənab prezidentin 2022-ci il sərəncamını əsasən "Şuşa ili" qəbul olunmuşdur və Şuşa şəhərini Azərbaycan mədəniyyət paytaxtı elan edilmişdir.

Azərbaycan xalqının həyatında və eləcədə ölkənin iqtisadiyyatında böyük rolu olan Şuşanın qiymətləndirilməsi zamanı qarşıya qoyulan işlərin təhlili nəticəsində şəhərin yenidən dirçəlməsi üçün ciddi işlər tələb olunur. Potensialı böyük olan Şuşanın inkişaf yolunun işlənməsi və yeni layihələrin həyata keçirilməsi uzun zaman tələb edir. Təbii mədəni tarixi sərvətlərin qorunması və onların gələcək nəsillərə ötürülməsi vacib amil sayılır. Tarixi, mədəni irs obyektlərinin qorunması üçün müəyyən fondlar formalaşdırılır. Şuşanın özünəməxsus təbii sərvətinin qorunması, dünya ictimaiyyətinə tanıdılması ilə ölkəyə turist axınının kütləvi gəlişinə və turizm sahəsinin uğurla inkişafına gətirib çıxaracaqdır. Multikulturalizm siyasəti inkişaf edərək turist axının ölkəmizə cəlb

olunmasına turizm sahəsinin hərtərəfli irəliləməsinə nail olunacaqdır.

Hal-hazırda Qarabağda ən geniş miqyaslı bərpa işləri ən çox Şuşada təşkil edilir. Düşmən tərəfindən dağıdılan şəhər öz ruhuna, mədəniyyətinə yenidən qayıdacaqdır . Dağıdılan muzeylər , obyektlər bərpa olunaraq öz əvvəlki görkəmini alacaqdır. Bunun üçün Azərbaycanın dövlət büdcəsindən lazımi hesab ayrılmışdır. Qarşıya qoyulan planlar çıxan problemlərin həlli istiqamətində yönəlmişdir. Şəhərdə torpaq sahələrinin, daşınmaz əmlakların, infrastruktur obyektlərinin mövcud vəziyyətinin dəyərləndirilməsinə və inventarlaşması işləri həyata keçirilir. Artıq Şuşada görülən işlər içərisində telekommunikasiya vasitələri, televiziya, radio stansiyaları və internet istifadə verilməsini göstərə bilərik. 2022- ci ilin əvvəlindən Azərbaycan xalqına Şuşa şəhərinə səfərlər təşkil edilir. Şuşaya aparan yol "Zəfər yolu" adlandırılmışdır. Bu yolda eləcə də körpü, tunellər tikilmişdir. Hal-hazırda şəhərə dəmir yolunu çəkilməsi üçün layihələr işlənilir.

Bütün bu təhlillər Şuşa şəhərinin yüksək səviyyədə bərpa işlərinin həyata keçirildiyinin göstəricisidir. Şəhərin baş planına gəldikdə burada 6 məhəllənin salınacağı və orada 2020 nəfərin yaşayacağı proqnozlaşdırılır. Burada "ağıllı şəhər" konsepsiyası qurularaq yeni yaşayış kompleksin təməli qoyuldu. Yeni məktəblərin tikilməsi, vətəndaşlara xidmətə görə DOST Mərkəzinin açılması nəzərdədir. Şəhərdə təbiətə xələl gətirəcək heç bir sahibkar fəaliyyətinə imkan verilməyəcək. Ekologiyanı qorumaq üçün təmiz avto nəqliyyat vasitələri istifadə ediləcəkdir. Şuşa şəhərinin qədim qala divarları bərpa edilmişdir. Girişdə Şuşa yazısı yenidən qoyulmuşdur. Dağıdılan Üzeyir Hacıbəyovun və Bülbülün ev muzeyləri bərpa olunmuşdur. Vaqifin məqbərəsi ilkin formasına qaytarılmışdır. Sənətkarlarımız Bülbül, Xurşudbani Natavanın,

Üzeyir Hacıbəyovun büstləri qaytarılaraq öz yerlərinə qoyulmuşdur. Xatırlamaq olar ki,ermənilər tərəfindən həmin büstlər güllələnmişdir. Ulu Öndər Heydər Əliyev sayəsində alınaraq qaytarılmış, 30 il Bakıda Milli İncəsənət Muzeyində qorunub saxlanılmışdır. Bu abidələrin yenidən uzun zaman sonra öz yerlərinə qoyulması milli dəyərlərimizi simvol edən tarixi hadisə sayılır.

Hazırda dövlətimizin nəzarətində olan işlər içərisində şəhərdə Park, Xarıbülbül, Qarabağ otellərində yenidənqurma işlərin aparılması, Qarabağ Zəfəri 5 ulduzlu otelinin layihəsini işlənib hazırlanması yer alır.

**Nəticə:** Şuşa şəhərinin mədəniyyət paytaxtı qanunu əsasən qədim şəhərin yenidən bərpası, inkişafı mühafizəsi və gələcəkdə görülən işlərə dəstək məqsədi ilə Şuşa Dövlət Qoruğu və Fondunun yaradılması nəzərdə tutulur. Azad olunan Şuşada Xarıbülbül Musiqi Festivalı və Vaqif poeziya günlərinin bərpası parlaq hadisə kimi tarixə düşmüşdür.

Beləliklə qədim Şuşanın dirçəlməsində ölkənin qarşısına qoyulan əsas işləri qeyd etsək:

1. Lazımi təşkilatı tədbirlərin həyata keçirilməsi ilə Şuşanın tarixi potensialının bütün dünya ölkələrinə təqdimat şəklində göstərmək, sərgilər keçirilməsinin təşkil etmək ;
2. Bölgənin işğal dövrü və bugünkü dövrlər arasında şəhərin görünüşünü dünya ictimaiyyətinə çatdırmaq, erməni vandallarını tanıtmaq;
3. İnformasiya portalları vasitəsilə qədim şəhərin turizmlə bağlı qeyri-maddi mədəni irsi nümunələrini video materiallar əsasında, reklam afişalarında hazırlamaq, eləcədə turizm potensialının reklam təbliğatını gücləndirmək vacib amillər sırasına daxil edilməlidir.

Sonda məqaləni Cənab Prezident Ali Baş Komandan İlham Əliyevin 8 noyabr 2020-ci ildə "Şuşa"şəhərinin azad olunduğu gün səsləndirdiyi fikirlərlə bitirmək istəyirəm: ""Əziz şuşa, sən Azadsan! Əziz şuşa, biz qayıtmışıq, biz səni dirçəldəcəyik!" Hazırda Azərbaycan xalqının qətiyyəti, birlik nümayişi ilə azad Şuşamızda bu qururlandırıcı çağırışı real işlərin başlanılması ilə nəticələndiririk. Şəhərin sosial-iqtisadi qurulucuğunda xidmət sahələrinin inkişaf etməsini ilk öncə nəzərə alınır. Turizm rekreasiya imkanlarında düzgün və səmərəli istifadəyə, turizm seqmentlərinə geniş yer verilməklə iqlimdən, təbiət guşələrindən rasional istifadə etməklə şəhərində dirçəlməsinə diqqət yetirilməsi başlıca məqsədlərdəndir. Əminliklə deyə bilərik ki, 2030-cu ilədək qarşıya qoyulan və nəzərdə tutulan hədəflərə nail olmaqla şəhərin milli prioritetlər çərçivəsində səviyyəsini qaldırılmasın nail olunacaqdır.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycan Turizm Agentliyinin rəsmi saytı: http://tourism.gov.az
2. Əziz Şuşa, sən azadsan!Əziz Şuşa, biz qayitmışıq,biz səni dirçəldəcəyik! 08.05.2021 https://azertag.az
3. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikasının Sərəncamı https://prezident.az
4. Hüseynov Y. (2013) "Şuşa şəhərinin tarixi", Bakı: "Şuşa" nəşriyyatı,156 səh.
5. Mədəniyyət İqtisadiyyatı: Şuşadan inkişaf impulsları,Şuşa-Bakı , 18-19 sentyabr 2022-ci il